parlaq imzalar

Parlaq bir gələcək üçün, çiçəklənən millət üçün,
düşünərək yaşayanlar üçün, səsi dünyaya yayılacaq
bir gənclik üçün, işıqlı sabahlar üçün, xoşbəxt bir ailə
üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: ____________________

Oxu tarixi: ____________________

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

# UŞAĞINIZIN HƏKİMİ

Anaların ən çox soruşduğu 100 suala
qısa və praktik cavablar

DOK. AYTƏN İSMAYILZADƏ

mono
NON-FİKŞN

Koordinator: Nurman TARİQ

Redaktor: Toğrul MUSAYEV

Korrektor: Flora ƏLİYEVA

Tərtibatçı: Zülfi XƏLİLOV

Cildin dizayneri: Ramin HƏSƏNƏLİZADƏ

**Dok. Aytən İsmayılzadə**
**UŞAĞINIZIN HƏKİMİ**

Bakı, "MONO" nəşriyyatı – 2023, 224 səh.

**© Aytən İsmayılzadə / 2023**
**© Parlaq İmzalar MMC / 2023**

Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

MONO – Parlaq İmzalar MMC-yə məxsus markadır.

ISBN: 978-9952-5476-0-3

MONO nəşriyyatı – 8

www.parlaqimzalar.az
mono@parlaqimzalar.az
/ monokitab
0559697259 / 0559897259

Mətbəə: "AVE PRİNT" MMC
Çap tarixi: 23.01.2023
Sifariş: 04(02)/23

**Dok. Aytən İsmayılzadə** 2008-ci ildə Azərbaycan Tibb Universitetinin pediatriya fakültəsini bitirib. Akademik təbabətlə yanaşı, inteqrativ tibb sahəsində də bilik və təcrübəyə yiyələnib.
Uşaqlarda enurez (sidiyi saxlaya bilməmək), enkoprez (nəcisi saxlaya bilməmək), başağrısı, yuxusuzluq kimi vəziyyətlərdə inteqrativ tibbin müalicə metodlarından sayılan akupunkturanı tətbiq edir.
Biotənzimləyici terapiya üzrə Kolumbiya, İsveçrə, Almaniya, Rusiya, Türkiyə mütəxəssislərinin "Mikrobioloji terapiya", "İzopatik terapiya", "Seqmentar-metamerik terapiya", "Ortomolekulyar terapiya" kimi mövzularda keçirilən kurslarında iştirak edərək sertifikatlar alıb.
Körpələrin əlavə qidaya keçməsi haqqında "Əlavə nə verim?" məlumat kitabçasını hazırlayıb. "Analar məktəbi", "Ana-bala", "Bizim həkim" tibbi-maarifləndirici proqramların aparıcısı olub.
Analar üçün "Bilikli Ana" təlim kursunun təsisçisidir.
Hazırda Bioloji Təbabət Klinikasında pediatr kimi fəaliyyət göstərir.
Ailəlidir, 2 övladı var.

# Mündəricat


1. Peyvənd vurdurmaq ........ 12
2. Peyvənd ........ 14
3. Əmgəyin bitişməsi ........ 16
4. Kəllədaxili təzyiq ........ 18
5. Başın isti olması ........ 20
6. Başdakı sarı qartmaq ........ 22
7. Başını saxlamaq ........ 24
8. Başın böyüməsi ........ 26
9. Başın yastı olması ........ 28
10. Saçların inkişafı ........ 30
11. Saç tökülməsi ........ 32
12. Dişin çıxmaması ........ 34
13. Süd dişlərinin çürüməsi ........ 36
14. Ağız suyunun çox axması ........ 38
15. Əlini ağzına salmaq ........ 40
16. Çənə əsməsi ........ 42
17. Ağ ərp ........ 44
18. Qədəhvari dil ........ 46
19. Yad cismin udulması ........ 48
20. Əmizdirmə müddəti ........ 50

21. Gecə qidalanması 52
22. Qidalanma 54
23. Əlavə qida 56
24. Süd verən ananın pəhrizi 58
25. Kofe içmək 60
26. Ana südünün saxlanması 62
27. İməkləmək 64
28. Yerimək 66
29. Ayaq əyriliyi 68
30. Yüyürək 70
31. Barmaq ucunda gəzmək 72
32. Uşaqlarda ayaq ağrıları 74
33. Bud-çanaq müayinəsi 76
34. Göz müayinəsi 78
35. Göz çirklənməsi 80
36. Gözlərdə çəplik 82
37. Uşağın eşitməsi 84
38. Qulaq ağrısı 86
39. Qulağın təmizlənməsi 88
40. Reflüks 90
41. Çox qusmaq 92
42. Qarının quruldaması 94
43. Uşaqlarda qarın ağrısı 96
44. Qurd xəstəlikləri 98
45. Uşaqlarda dişqıcama 100
46. Köp 102
47. Uşağın doyması 104
48. Havaya çıxarmaq 106
49. Uşaqda göyərmə 108
50. Göyümtül ləkələr 110

51. Günəşdə qaralma ........ 112
52. Körpələrdə bişməcə ........ 114
53. Çox tərləmək ........ 116
54. Dəri quruluğu ........ 118
55. Sarılıq ........ 120
56. Fizioloji sarılıq ........ 122
57. Fizioloji sarılıq zamanı peyvənd ........ 124
58. Allergiya zamanı peyvənd ........ 126
59. Sinədə şiş ........ 128
60. Masaj ........ 130
61. Uşaqlarda boy artımı ........ 132
62. Boy artımı ilə bağlı narahatlıq ........ 134
63. Çəki artımı ........ 136
64. Uşaqların cinsi inkişafı ........ 138
65. Kriptorxizm ........ 140
66. Limfa düyünlərinin böyüməsi ........ 142
67. Hipertonus ........ 144
68. Burunun təmizlənməsi ........ 146
69. Daban testi ........ 148
70. Zədələnməni müəyyən etmək ........ 150
71. Qanazlığı ........ 152
72. Qanazlığının təyini ........ 154
73. Səpgili virus xəstəlikləri ........ 156
74. Səpmək ........ 158
75. Üzdə səpgilər ........ 160
76. Uşağın danışması ........ 162
77. Oturtmaq ........ 164
78. Uşağın yıxılması ........ 166
79. Yaddaş zəifliyi ........ 168
80. Gecə yata bilməmək ........ 170

81. Yatarkən fısıldama ........ 172
82. Diksinmə ........ 174
83. Uşaqlarda böyrəkdaşı ........ 176
84. Sulu kaka ........ 178
85. Gündəlik kaka sayı ........ 180
86. Sidik analizi ........ 182
87. Uşaqlara çay vermək ........ 184
88. Duz vermək ........ 186
89. Antibiotik zərərlidir?! ........ 188
90. Uşaq otağının temperaturu ........ 190
91. Qrip zamanı ilk yardım ........ 192
92. Ürək müayinəsi ........ 194
93. "Kenquru"dan istifadə ........ 196
94. Hormonal mazlar ........ 198
95. D vitamininin dozalanması ........ 200
96. Vitamin D verilməsi ........ 202
97. Kalsium preparatı ........ 204
98. Balıq yağı ........ 206
99. Şəkərli su ........ 208
100. Şəkər qəbulu ........ 210



# 1

# PEYVƏND VURDURMAQ



## Uşaqlara peyvənd vurdurmaq vacibdirmi? Özəl klinikada olunsa yaxşıdır, yoxsa dövlət poliklinikasında?

Peyvəndləmə bir çox xəstəliklərdən yeganə qorunma vasitəsidir. Təbii çiçək kimi ölümcül xəstəliyin kökü peyvənd hesabına kəsilmişdir. Poliomielit (uşaq iflici), hepatit B, difteriya, vərəm, qızılca kimi ciddi yoluxucu xəstəliklərin letallıq (ölüm) göstəricisi həddindən artıq enmişdir. Hazırda ölkəmizdə Milli peyvənd cədvəlimizə əsasən 11 xəstəlikdən qoruyan peyvəndlər icra olunur:

1. Vərəm;
2. Poliomielit;
3. Hepatit B;
4. Göyöskürək;
5. Difteriya;
6. Tetanus;
7. Pnevmokok pnevmoniyası;
8. B tip hemofilus influenza;
9. Qızılca;
10. Məxmərək;
11. Epidemik parotit

Peyvəndləmə olmasa, bu xəstəliklərin epidemiyası ilə üzləşərik. Bu isə çox sayda uşaq ölümü və iflicinə səbəb ola bilər. Peyvənd hesabına orqanizmdə həmin törədiciyə qarşı immun yaddaş formalaşır, yəni immunitet ona qarşı necə mübarizə aparacağını bilir.

Hər bir uşaq peyvəndlənməlidir, bu bir tibbi xidmətdir və valideynlər buna müdaxilə etməməlidirlər.

Özəl klinika və dövlət poliklinikası arasında seçim etməkdə çətinlik çəkən valideynlər bilməlidirlər ki, ÜST (Ümumdünya Səhiyyə Təşkilatı) hər bir dövlətə peyvənd verir və dövlət onu ödənişsiz həyata keçirir. Özəl klinikalar özləri aldığı üçün qiymətləri də elə özləri təyin edirlər.

# 2

# PEYVƏND



## Uşağa doğum evində hansı peyvəndlər edilir?

Uşaq doğulduqdan sonra ilk 12 saat ərzində hepatit B xəstəliyi əleyhinə peyvənd edilir. Həyatının 4-7-ci günü poliomielit, yəni uşaq iflicinə qarşı və BCG vərəm əleyhinə peyvənd vurulur. Uşaq iflicinə qarşı edilən peyvənd, yəni oral poliomielit vaksini damcı şəklində uşağın ağzına tökülür.

Uşağın çəkisi 2500 qr-dan azdırsa, o zaman peyvəndləmə çəki artımından sonraya saxlanılır. Əgər hər hansı digər səbəbdən vərəm əleyhinə peyvənd edilmədisə, o zaman ilk 2 ay ərzində edilir. 2 ay müddətində də edilmədisə, o zaman Mantu sınağından sonra edilməlidir.

Doğum evində vurulan peyvəndlər təkbaşına qorumaq xüsusiyyətinə malik deyil, ona görə də sonrakı aylarda təkrar peyvəndləmə aparılır. Vərəm əleyhinə isə yalnız bir dəfə icra edilir.

# 3

# ƏMGƏYİN BİTİŞMƏSİ



## Körpəm 3 aylıqdır, əmgəyinin bitişməyinə az qalıb. Əmgəyi gec bitişsin deyə nə etmək lazımdır?

Əvvəlcə gəlin görək əmgək nə üçündür? Əmgək başın təpə nahiyəsində, ortada sümüksüz rombabənzər sahədir. Bu, böyük əmgəkdir. Kiçik əmgəklər də olur, onlar uşağın başının yan və arxa tərəfində yerləşir. Doğulana yaxın artıq kiçik əmgəklər sümükləşir və bağlanır. Böyük əmgək isə açıq qalır. Çünki onun bir vəzifəsi var. Belə ki, uşaq doğuş yolundan keçərkən kəllə sümüklərinin bir-birinə yaxınlaşmasına imkan vermək üçün o, açıq qalmalıdır. Əks halda, doğuş yolundan keçərkən başı kiçilməz, zədə ala bilərdi. Doğulduqdan sonra isə artıq əmgək uşağa lazım deyil. Onun tez, ya gec bağlanması bizi narahat etməməlidir. Bunun üçün müalicə yoxdur və kimsə təyin edirsə, əsassızdır. Adətən, böyük əmgək 3 ay-2 yaş arası bağlana bilər.

# 4

# KƏLLƏDAXİLİ TƏZYİQ



## Uşağım 5 aylıqdır, gün ərzində çox ağlayır, deyirlər kəllədaxili təzyiqi var, bu, doğrudurmu?

Kəllədaxili təzyiq beyində dövr edən mayenin hər hansı səbəbdən artması (hidrosefaliya) və ya beyində həcmli şişin olması nəticəsində artır. Bu isə, sadəcə, ağlağanlıqla özünü göstərmir, başın ölçüsünün hər ay normadan artıq artması, gözlərdə qeyri-normal hərəkətlər, "batan günəş" simptomu, əmgəyin qabarması və gərgin olması, baş dərisində damarların aydın görünməsi kəllədaxili təzyiqin artmasına işarə ola bilər. Ancaq körpəyə baxmaqla, yaxud çox ağladığını görüb "kəllədaxili təzyiqi var" demək tamamilə yanlışdır.

Beyində maye artması və bununla bağlı dəyişikliklər neyrosonoqrafiya (beyinin USM müayinəsi), MRT (maqnit rezonans tomoqrafiyası) üsulu ilə təyin oluna bilər.

# 5

# BAŞIN İSTİ OLMASI



## Uşağın başı niyə həmişə isti olur?

Uşağın, ümumiyyətlə, insanın başı bədənin digər hissəsinə nisbətən daha çox qanla təchiz olunub. Başda qanla zəngin beyin yerləşir. Buna görə də baş daha isti olur.

Başın isti olması heç bir patoloji xəstəlik vəziyyətindən xəbər vermir. Çünki bədən daha çox baş sayəsində soyuyur, ona görə də isti olur. Bu səbəbdən körpələrin başına (əsasən yenidoğulmuşun) papaq qoyuruq.

Eyni zamanda temperatur qalxanda yaş dəsmalı alın, gicgah və boyun nahiyəsinə qoyaraq burada dövr edən isti qanı soyuduruq.